*“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 25 oktyabr 2014-cü il № 81 (1898) Qiyməti 25 qəpik

## Rəsmi xronika

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Avstriya parlamentinin vitse-spikeri Karlhaynts Kopfu qəbul edib.***

***Görüşdə ikitərəfli əməkdaşlığımızın səviyyəsindən məmnunluq ifadə olundu, ölkələrimiz arasında əlaqələrin bundan sonra da inkişafı üçün yaxşı imkanların olduğu qeyd edildi, bu baxımdan hər iki ölkə şirkətlərinin iqtisadi əməkdaşlığının genişləndirilməsi üçün perspektivlərin müəyyən edilməsinin önəmi bildirildi.***

* * *

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı gedən proseslər ətrafında geniş fikir mübadiləsi aparıldı.***

* * *

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Albaniya parlamentinin sədri İlir Metanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Prezident İlham Əliyev Azərbaycanın Avropada, Asiyada, həmçinin Balkan regionunda fəal şəkildə investisiyalar qoyduğunu qeyd edərək, ölkəmizin Albaniya iqtisadiyyatının müxtəlif sektorlarına, o cümlədən enerji, inşaat sektorlarına sərmayə yatırması üçün əlavə imkanların nəzərdən keçirilməsinin mümkün olduğunu qeyd etdi, ölkələrimiz və xalqlarımız arasında yaxın əlaqələri nəzərə alaraq əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı potensialın mövcudluğunu bildirdi.***

* * *

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Rusiya Federasiyasının "Rosneft" Dövlət Neft Şirkətinin prezidenti İqor Seçini qəbul edib.***

***Görüşdə "Rosneft" və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti tərəfindən həm Azərbaycanda, həm də Rusiyada həyata keçirilən birgə layihələr barədə məlumat verildi, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər müzakirə edildi.***

* * *

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Litva Respublikasının xarici işlər naziri Linas Linkeviçiusun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Görüşdə Azərbaycan-Litva münasibətlərinin hazırkı səviyyəsindən məmnunluq ifadə olundu, ölkələrimiz arasında müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, ticarət, təhsil və digər sahələrdə əməkdaşlıq imkanlarını genişləndirmək ətrafında fikir mübadiləsi aparıldı.***

**AzərTAc-ın materialları əsasında**

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Azərbaycan əsgəri ən yüksək hörmətə və diqqətə layiqdir

***Bugünkü cəmiyyətimizdə ən hörmətli peşələrdən söhbət düşəndə hərbçi peşəsinin adı birinci çəkilir. Bu təsadüfdən deyil, əslində hərbçilər öz ömürlərini bütövlükdə Vətənin qorunmasına həsr etmiş insanlardır. Ümummilli liderimiz Heydər Əliyev daim hərbi forma daşıyan adamlara hörmət və ehtiram göstərilməsini vacib hesab edirdi və bildirirdi ki, onlar cəmiyyətdə ən uca hörmətə layiqdirlər.***



Bu il avqustun əvvəlində erməni kəşfiyyatçılarının cəbhə xəttində ordumuzun mövqelərinə basqın etməsi ilə yaranan gərginlik az bir vaxtda əsgər və zabitlərimizin hünəri ilə aradan qaldırıldı. Düşmən xeyli itki verərək geri çəkilməyə məcbur oldu. Həmin hadisə Azərbaycan cəmiyyətində ordumuzun nüfuzunu daha da artırdı və hər bir vətəndaşımızda belə bir inam formalaşdırdı ki, Silahlı Qüvvələrimizin şəxsi heyəti düşmənə layiqli cavab vermək üçün yüksək döyüş əzminə malikdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev həmin günlərdə Ağdam rayonuna səfəri çərçivəsində ordumuzun ön xətdəki mövqelərinə baş çəkdi və düşmən təxribatının qarşısının alınmasında fərqlənmiş hərbi qulluqçularla görüşdü. Onlara yüksək dövlət mükafatlarını təqdim edən ölkə başçısı bildirdi ki, torpaqlarımızın qorunmasında hünər və rəşadət göstərən hər bir zabitin, gizirin, əsgərin əməyi cəmiyyətimizdə yüksək hörmətə layiqdir.

Prezident İlham Əliyev döyüşçülərlə ön xətdə keçirdiyi görüşlərdə belə bir məqamı xüsusi vurğuladı ki, Azərbaycanın qanuni ərazilərinin işğaldan azad edilməsi uğrunda apardığımız haqq-ədalət mübarizəsi ordumuzun şəxsi heyətinin mübarizə əzmini daha da gücləndirir. Doğrudan da, bu gün ordu sıralarında xidmət edən hər bir əsgərimiz yaxşı bilir ki, biz müharibə tərəfdarı deyilik, yalnız işğalda olan ərazilərimizi təcavüzkarların tapdağından azad etmək uğrunda mübarizə aparırıq.

Ümumiyyətlə, ordu rəhbərliyinin nümayəndələri də son vaxtlar cəbhə xəttinə müntəzəm səfər edir və bilavasitə döyüş postunda əsgərlərin sosial-məişət qayğıları ilə maraqlanırlar. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun ordunun komandir heyəti qarşısında qoyduğu əsas tələb ondan ibarətdir ki, Vətəni qorumaq kimi müqəddəs missiyanı yerinə yetirən əsgərlərimizin hər biri daim diqqət və qayğı ilə əhatə olunmalıdır.

Ötən tədbirlərin birində ordunun maddi-texniki təminatına cavabdeh olan qurumların zabit heyəti qarşısında çıxış edən Müdafiə naziri israrla bildirmişdi ki, bizim əsas tələbimiz ön xətdə xidmət edən döyüşçülərin sosial-məişət qayğılarını diqqət mərkəzində saxlamaqdır. Yəni, çətin təbii şəraitdə xidmət edən şəxsi heyətin əşya-ərzaq təminatı yüksək səviyyədə olmalıdır. Bu məqsədlə də ordumuzun düşmənlə təmas xəttindəki bölmələrinin şəxsi heyəti üçün yüksək şərait yaradılır, onların geyimlə təminatına və keyfiyyətli qidalanmasına ciddi fikir verilir.

Bu günlərdə ön xətdə yerləşən hərbi hissələrdən birinə ezamiyyətim zamanı döyüş postlarında əsgərlərin qida təminatı ilə yaxından maraqlandım. Öyrəndim ki, son vaxtlar döyüşçülərə keyfiyyətli milli yeməklər hazırlanır. Taqımda aşpazın fəaliyyəti ilə maraqlananda bildirdilər ki, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olan təcrübəli aşpaz əsgərlər üçün dadlı milli xörəklər hazırlayır. Özüm də həmin gün əsgərlərin naharına qonaq oldum, insafən, xörəyin dadı heç də evlərimizdə bişirilən xörəklərdən geri qalmırdı. Nahardan sonra döyüşçülərimiz də söhbətlərində son vaxtlar keyfiyyətli qidalanmalarından razılıq etdilər. Bildirdilər ki, daha əvvəlki dövrlərin problemlərindən əsər-əlamət qalmayıb, indi əsgərə yüksək diqqət və qayğı vardır.

Əlbəttə, dövlət başçımızın da bu gün ordu komandirləri qarşısında tələbi budur ki, Vətənin qorunması kimi çətin və məsuliyyətli tapşırığın öhdəsindən gələn hərbi qulluqçular hər addımda yüksək diqqətə layiq olmalıdırlar.

**"Azərbaycan Ordusu"**

## Avropa İttifaqı Dağlıq Qarabağ münaqişəsinin həllində qətiyyətli mövqe nümayiş etdirməlidir

***Oktyabrın 22-də "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədri Bayram Səfərov Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.***

İctimai Birlikdən AzərTAc-a verilən məlumata görə, görüşdə B.Səfərov bildirib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində qətiyyətli mövqe nümayiş etdirməli olan qurumların hələ də ikili standartları davam edir. O qeyd edib ki, münaqişə beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi şərti ilə həll olunmalıdır və biz bu istiqamətdə həm Avropa İttifaqından, həm də digər beynəlxalq qurumlardan qətiyyətli mövqe gözləyirik. Azərbaycan sülh tərəfdarıdır və biz həm öz ölkəmizdə, həm Cənubi Qafqaz regionunda, həm də bütün dünyada sülh istəyirik.

Görüşdə Avropa İttifaqının Dağlıq Qarabağ münaqişəsinin həllində yaxından iştirak etməsinin zəruriliyi vurğulanıb. Münaqişənin həlli üçün Aİ-nin dəstəyi və səyi nəticəsində icmalararası dialoqların təşkili, qurumun bu istiqamətdə mövcud proqram və layihələrində tərəflərin daha fəal iştirakının təmin olunması vacibdir.

Herbert Salber deyib ki, Dağlıq Qarabağ münaqişəsinin həlli Avropa İttifaqı üçün çox vacib məsələdir və təşkilat münaqişənin tez bir zamanda sülh yolu ilə həllinin tərəfdarıdır. O əlavə edib ki, bu istiqamətdə danışıqların davam etdirilməsi çox önəmlidir.

## Azərbaycan Belçikada Birinci Dünya müharibəsinin 100 illiyinə həsr olunmuş xatirə tədbirlərində təmsil olunub

***Belçika Krallığının Nieuport şəhərində Birinci Dünya müharibəsinin 100 illiyinə həsr olunmuş xatirə tədbirləri keçirilib.***

Nieuport şəhəri Birinci Dünya müharibəsinin ən qanlı döyüşlərinə şahid olduğu üçün 100 illik xatirə tədbirlərinin keçirilməsi üçün məhz bura seçilib.

Xatirə tədbirləri Belçika Kralının, eyni zamanda, Belçikada akkreditə olunmuş Azərbaycan, Yaponiya, Kanada, Bolqarıstan, Sloveniya və daha bir neçə ölkənin səfirliklərinin himayəsi altında keçirilib.

Mərasim simfonik orkestrin konserti ilə başlayıb və Birinci Dünya müharibəsində iştirak etmiş ölkələrin mövzuya dair foto sərgiləri ilə davam etdirilib. Ölkəmiz üçün ayrılmış stenddə Azərbaycan Tarix Muzeyindən əldə olunmuş əyani vəsaitlər, o dövrə aid xəritələr sərgilənmişdir.

Azərbaycanın səfiri Fuad İsgəndərovun sərgi iştirakçılarına müraciəti xatirə tədbirləri ilə bağlı çap olunmuş kitabçada yer alıb.

Səfir müraciətində Azərbaycanın strateji coğrafi mövqeyindən söz açıb, ölkəmizin tarixən bu regionda baş vermiş proseslərin içində yer aldığını və Birinci Dünya müharibəsi illərində Rusiya imperiyasının tərkibində olmasına baxmayaraq, çoxlu itkilər verdiyini diqqətə çatdırıb.

F.İsgəndərov Birinci Dünya müharibəsindən sonra yaranmış Azərbaycan Xalq Cümhuriyyətindən söz açıb, onun qısa müddət mövcud olmasına baxmayaraq, bu gün hər bir azərbaycanlının qürur mənbəyi olduğunu qeyd edib.

Müraciətdə ölkəmizin müstəqilliyini bərpa etdikdən sonra əldə olunan uğurları barədə də məlumat yer alıb.

**AzərTAc**

# Müdafiə naziri Kolumbiya Respublikasının Azərbaycan Respublikasındakı müvəqqəti işlər vəkilini qəbul edib

***Oktyabrın 22-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Kolumbiya Respublikasının ölkəmizdəki müvəqqəti işlər vəkili Assad Xose Xater Penanı qəbul edib.***

Müdafiə naziri regiondakı hərbi-siyasi vəziyyətə toxunaraq Ermənistanın işğalçılıq siyasətinin bu gün də davam etdiyini, bunun nəticəsində sülh prosesinin yubanmasını və danışıqların uzadılmasının bölgədəki şəraitə mənfi təsir göstərməsini diqqətə çatdırıb.

Görüşdə Azərbaycan ilə Kolumbiya arasında əlaqələrin inkişaf etdirilməsində qarşılıqlı marağın olması və hərbi sahədə münasibətlərin qurulması istiqamətində fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



# Müdafiə naziri İspaniya Krallığının Azərbaycan Respublikasındakı müvəqqəti işlər vəkilini qəbul edib

***Oktyabrın 22-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov İspaniya Krallığının ölkəmizdəki müvəqqəti işlər vəkili Xose Luis Diez Xuarezi qəbul edib.***

Regionda mövcud olan hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yaranma səbəbləri barədə ispaniyalı qonağı məlumatlandıran Müdafiə naziri iki ölkə arasında hərbi əlaqələrin həm NATO proqramları, həm də ikitərəfli əməkdaşlıq əsasında həyata keçirildiyini və bu münasibətlərin genişləndirilməsi istiqamətində davamlı addımların atılmasını xüsusi vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



# Müdafiə naziri Hərbi Dəniz Qüvvələrinin döyüşə hazırlıq səviyyəsini yoxlayıb







***Oktyabrın 23-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov əsaslı təmirdən çıxaraq daha güclü mühərrik və qurğularla təmin edilmiş Hərbi Dəniz Qüvvələrinin gəmilərində olub.***

Hərbi gəmilərin daimi yerləşmə məntəqəsinə gələn Müdafiə nazirini Hərbi Dəniz Qüvvələri komandanının vəzifələrini icra edən 1-ci dərəcəli kapitan Şahin Məmmədov qarşılayıb və gəmilərin hazırlığı barədə məruzə edib.

Hərbi gəmilərin taktiki-texniki xüsusiyyətləri, silahlanması, düşmənə qarşı mübarizə vasitələri, komanda məntəqələri, o cümlədən təhlükəsizlik, qəza-xilasetmə, maddi-texniki təminat bölmələri barədə Müdafiə nazirinə məlumat verilib.



Bildirilib ki, gəmi heyətinin yerləşməsi, qidalanmasının təşkili, vaxta xidmətinin aparılması, həmçinin həyati vacib digər qurğular yenidən təşkil edilməklə şəxsi heyətin müasir standartlara cavab verən şəraitdə xidmət keçməsi təmin olunub.



Sonra gəmilərin daimi yerləşmə məntəqəsindən dənizə çıxışı həyata keçirilib. Tapşırığa əsasən şərti terrorçuların ələ keçirdiyi gəminin şəxsi heyətinin xüsusi təyinatlılar tərəfindən azad edilməsi elementi icra olunub.



Gəmilərin ümumi vəziyyətini və şəxsi heyətin bacarıqlarını müsbət qiymətləndirən Müdafiə naziri bildirib ki, bütün bu nailiyyətlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqəti və qayğısı sayəsində əldə edilib. Nazir Hərbi Dəniz Qüvvələrinin döyüş hazırlığının daha da artırılması və gəmi heyətlərinin sosial şəraitinin yaxşılaşdırılması barədə müvafiq göstəriş və tapşırıqlarını verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar Vüsal HƏMİDOVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***23 oktyabr 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 14 dəfə pozulub.

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının İcevan rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimizi atəşə tutublar.

Füzuli rayonunun Aşağı Veysəlli, Goranboy rayonunun Tapqaraqoyunlu, Ağdam rayonunun Yusifcanlı kəndləri yaxınlığında, həmçinin Füzuli, Goranboy və Xocavənd rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

***24 oktyabr 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 15 dəfə pozulub.

Erməni silahlı bölmələri Füzuli rayonunun Aşağı Seyidəhmədli, Horadiz, Qaraxanbəyli, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

# Türkiyə Respublikası Silahlı Qüvvələrinin nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasında olub



***Oktyabrın 21-i və 22-də Ərzurum şəhərində yerləşən Türkiyə Respublikası Silahlı Qüvvələrinin Ordu Korpusunun komandiri general-polkovnik Şərəf Öngayın rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan şəhərində səfərdə olub.***



Nümayəndə heyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri qoyaraq ulu öndərin muzeyini ziyarət ediblər. Sonra qonaqlar Şəhidlər xiyabanını və Türk şəhidləri abidəsini ziyarət edərək öz ehtiramlarını bildiriblər.

Nümayəndə heyətini qərargahda qəbul edən Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordusunun komandanı general-leytenant Kərəm Mustafayev türkiyəli qonaqların Naxçıvana səfərini iki qardaş ölkə arasında hərbi sahədə əlaqələrin inkişafı kimi dəyərləndirib. Görüşdə hərbi əməkdaşlığın daha da genişləndirilməsi və perspektivləri barədə fikir mübadiləsi aparılıb.



Türkiyəli hərbçilər Əlahiddə Ümumqoşun Ordusunun "N" hərbi hissəsinə gedərək şəxsi heyətin sosial-məişət şəraiti, döyüş hazırlığının səviyyəsi ilə tanış olub, yeni açılmış Təlim və Tədris Mərkəzinə baş çəkib, poliqonda keçirilən taktiki təlimləri izləyiblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Burda dağlar baş-başa

## Əlahiddə Ümumqoşun Ordusundan qeydlər

***Naxçıvana getməyi, təbiətinin gözəlliklərilə yaxından tanış olmağı və uzun illərdir ki, blokada şəraitində yaşasa da, qurub yaradan, qəhrəmanlıqla müdafiə olunan qədim diyarın məğrur müdafiəçiləri barədə yazı hazırlamağı çoxdan arzulayırdım. Nəhayət, Naxçıvana getmək üçün fürsət ələ düşdü. Müdafiə Nazirliyinin zabitləri ilə birlikdə bu qədim diyara getmək imkanı yarandı.***



Azərbaycanın bu qədim və gözəl diyarı məni çox heyrətləndirdi. Müasirliyi və yaraşığı ilə diqqəti çəkən Naxçıvan səliqə-sahmanı ilə göz oxşayırdı. Bununla belə bizdə ən yüksək təəssüratı Əlahiddə Ümumqoşun Ordusunda gördüyümüz döyüş hazırlığı, möhkəm əsgəri intizam və yüksək döyüş ruhu yaratdı.

Məlum olduğu kimi, Əlahiddə Ümumqoşun Ordusu Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 18 dekabr 2013-cü il qərarı ilə 5-ci ordu birliyinin bazasında yaradılıb. Bu, ölkəmizin təhlükəsizliyi baxımından çox mühüm hadisə oldu. Çünki Naxçıvanın müdafiə qabiliyyəti bununla daha da artır. Əlahiddə Ümumqoşun Ordusunda struktur və idarəetmə ordu səviyyəsində təkmilləşdirilir, nəticədə daha səmərəli müdafiə sistemi qurulur. Naxçıvanda Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyilə keçirilən genişmiqyaslı hərbi təlimlər Əlahiddə Ümumqoşun Ordusunun potensialını bir daha ortaya qoydu. Əgər sabah döyüş əməliyyatları başlayarsa, muxtar respublika artıq özünü yüksək səviyyədə müstəqil müdafiə etmək imkanına malikdir.

- Ərazilərimizin düşməndən müdafiəsinin təmin edilməsi qarşıya qoyulmuş başlıca vəzifədir, - bizimlə söhbətində zabit Mirqiyas Rüstəmov söylədi. - Bunun üçün hərbi hissə və bölmələrin döyüş hazırlığı planında nəzərdə tutulmuş tədbirləri yerinə yetirməsi, fasiləsiz olaraq ön xətdə döyüş növbətçiliyinin həyata keçirilməsi, gecə və gündüz döyüşçülərimizin postlarda ayıq-sayıq xidmətlərini aparması ən vacib və zəruri məsələdir. Bilirsiniz ki, son zamanlar düşmən tərəf də etiraf edir ki, Naxçıvanda güclü bir ordu yaradılıb. Əgər düşmən hər hansı istiqamətdə təxribat xarakterli hərəkətlərə yol verərsə, dərhal öz layiqli cavabını alacaq.

Biz zabit Rüstəmovla iki gün ərzində ön xətt bölmələrini birlikdə gəzdik, onların xidməti, döyüş növbətçiliyilə tanış olduq və məişət şəraiti gözlərimizlə gördük. Doğrudan da, hərbi bölmələrimizdə günün tələblərinə uyğun yüksək məişət şəraiti yaradılıb.



### Tarixin şahidi qəbirlər

Batabatda düşmənlə üzbəüz mövqelərdə döyüş növbəsi aparan bölmələrimizə qalxarkən torpaq yolun solunda köhnə qəbirlərə rast gəldik.

- Batabat yaylağına keçmişdə Qarabağ camaatı yay gələndə qalxardı, - zabit Mirqiyas Rüstəmov deyir. - İsti aylarda bu ərazilərdə həm mal-heyvanını otarar, həm də aranın qorabişirən bürküsündən ayrılardılar. Buraya gələndə elat həmin yüksəkliklərdə dəyələr, çadırlar qurar, şənlik yaradardı. Yaylaqlarda həyatı ilə vidalaşan insanları daha bir də arana aparmazdılar, elə həmin yerlərdə də dəfn edərdilər. Çünki bura da Vətənimizin bir guşəsi idi. Bu qəbirlər Babı kəndindən gəlmiş insanların qəbirləridir. Yəni, bura Azərbaycanın bir parçası olduğundan rəhmətə gedənləri burada dəfn edərdilər. Həm də indiki kimi texnika yox idi, cənazəni buradan Qarabağa aparmaq asan deyildi. Hər il gəlirdilər buraya. Sovet dövründə bu get-gəl kəsildi. Amma tariximizin şahidi olan bu qəbirlər də keçmişimizin bir parçası kimi çox şeydən xəbər verir.

### Haradasan, döyüşçü dost?

Həmişə şərəfli döyüş yolu keçmiş, ləyaqətlə xidmət edən köhnə hərbçi dost-tanışları görəndə, onların xidmət yolunda qazandığı uğurları eşidəndə, çox sevinmişəm. Belə döyüşçü dostlarımızdan birinə bu bölgədə rast gəldim.

Zabit Tehran Mənsimov bir döyüşçü kimi 1992-ci ilin yanvarından Azərbaycan Silahlı Qüvvələrinin tərkibində Qarabağ döyüşlərinə qatılıb. 1993-cü ildə zabit kursuna göndərilərək leytenant rütbəsi alıb və taqım komandiri kimi Qarabağdakı hərbi hissələrimizdən birinə göndərilib. Xidmətini indiyədək bütövlükdə cəbhə bölgələrində keçirmiş zabit müxtəlif vəzifələrdə xidmət edib, vəzifə və rütbə pillələrində yüksəlib. Dövlət tərəfindən "İgidliyə görə", "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü və 2-ci dərəcəli, "Qüsursuz xidmətə görə" medallarıyla təltif edilib. Eyni zamanda döyüşçü zabit bu xidmətlərinin müqabilində dövlət tərəfindən evlə təmin olunub.

- Mənə də lazım olan odur ki, torpaqlarımızın işğaldan azad edildiyi günü görüm, - zabit Mənsimov tam ciddiliyə deyir. - Qarabağ alınsın, şəhidlərimizin də ruhu şad olsun. Təbii ki, bu əməliyyatlarda iştirak etmək mənim ən böyük arzumdur.

### Həm döyüş növbəsi, həm də döyüş hazırlığı

Zabit Mənsimovla bu ərazilərdə xidmət aparan bölmələrdən, onların döyüş hazırlığından söhbət açırıq. O, hərbi bölmələrin döyüş qabiliyyəti barədə ağız dolusu danışır:

- Burada həm ön xətdə əsgərlərimiz döyüş növbəsi aparır, həm də döyüş hazırlığının artırılması ilə məşğul olurlar. Hazırda ehtiyatda olan bölmələrimiz daimi və fasiləsiz döyüş hazırlığı ilə məşğul olurlar.

Hərbi hissədə aldığımız məlumata görə, döyüş hazırlığını artırmaq üçün tez-tez döyüşçülərin toplanışı keçirilir. Snayperlər hərbi hissədə seçilərək təyin edilirlər. Təbii ki, onlar dözümlü, səbirli, sərrast olmalıdırlar. Onların əksəriyyəti müddətdən artıq həqiqi hərbi xidmət qulluqçularıdır.



Biz hərbi hissədə olarkən kəşfiyyatçılar döyüş hazırlığını artırmaq məqsədilə səhra çıxışına aparılmışdılar. Onlar kəşfiyyatçılara lazım olan vərdişləri döyüş şəraitinə maksimum yaxınlaşdırılmış vəziyyətdə artırmaqla məşğul idilər.

Avqust ayında ordunun "ən yaxşı topçuları" adı uğrunda ixtisas üzrə yarışları keçirilmişdi. Hərbi hissənin topçuları da bu yarışlarda iştirak edib və yaxşı nəticələr göstərə biliblər.

Hərbi hissədə döyüş texnikasını və avtomobilləri dağlıq şəraitdə məharətlə idarə etmək üçün müvafiq sürücülük dərsləri keçirilir. Bir sözlə, döyüş hazırlığı planında nəzərdə tutulan bütün tədbirlər qrafik üzrə keçirilir və bütün ixtisaslar üzrə şəxsi heyətin döyüş qabiliyyətinin artırılmasına önəm verilir. Yəni, elə bir ixtisas, əsgəri peşə yoxdur ki, diqqətdən kənarda qalsın.

- Vəziyyət gördüyünüz kimi çox yaxşıdır, - zabit Mənsimov əlavə edir. - Döyüşçülərimizin əhval-ruhiyyəsi yüksəkdir, bölmələrimizin hazırlığı da həmçinin. Komandanlığın qayğısını şəxsi heyət həmişə hiss edir. Döyüş hazırlığı, tam əminliklə deyə bilərəm sizə, yüksək səviyyədədir. Ön xətdə döyüş növbətçiliyinə gələndə deməliyəm ki, düşmənlə təmas vəziyyətində xidmət aparan bölmələr postlarda keşik çəkməklə bərabər, bilavasitə ön xətdə keçirilən dərs və məşğələlərdə iştirak edirlər.

Ön xətdə xidmətə göndərilən əsgərlər döyüşkən, möhkəm, dözümlü və iradəli gənclərdən seçilirlər. Bura dağlıq ərazidir, postlar yüksəkliklərdə olduğundan burada döyüş növbəsi üçün fiziki cəhətdən daha hazırlıqlı döyüşçülər seçilirlər. Belə gənclər bu yerlərdə xidmətə daha yaxşı qatlaşa bilirlər.

- Elə vaxt olur ki, düşmən ön mövqelərdə qala bilmir, aşağılara düşür, - zabit Mənsimov deyir. - Amma bizim mətin əsgərlərimiz öz postlarını heç vaxt tərk etmirlər. Ona görə ki, bu torpaqlar, bu yüksəkliklər bizim ərazilərdir və onlar daim qorunmalıdır. Bu gün hamımız o ümidlə yaşayırıq ki, Ali Baş Komandan nə vaxt əmr verərsə, işğalda olan torpaqlarımızı düşmən tapdağından azad edək.

Burada öz gözlərimizlə gördük və şahidi olduq ki, Əlahiddə Ümumqoşun Ordusunun döyüşçüləri hərtərəfli qayğıyla əhatə olunublar. Məişət şəraiti, yeməkxanalar, idman zalları, yataq yerləri yüksək səviyyədədir. Bundan sonra əsgər və zabitlərə yalnız xidmət etmək, Vətənin keşiyində ayıq-sayıq dayanmaq qalır.

Peşəkar kadrlar olmasa, ən müasir silahlar belə dəmir yığınından başqa bir şey deyil. Silah və texnikanı işlədən, onlardan istifadə edənlər hərbçi kadrlardır, əsgər, gizir və zabitlərdir. Bu baxımdan hərbi hissədə şəxsi heyətin döyüş hazırlığını daim yüksəkdə saxlayan, yetərincə zəhmət çəkən zabit və gizirlərimiz var. Onlar haqlı olaraq ordumuzun qızıl fondu hesab edilirlər.



Bacarıqlı zabitlərdən Vəli Nadirovun, Elçin Alısoyun, Şahin Baxışovun, Orxan Ağayevin adlarını hərbi hissədə qürur hissilə çəkdilər.

### "Atsalar, cavablarını layiqincə alacaqlar"

Bizi dağlara aparan UAZ hərbi bölmənin qarşısında dövrə vurub dayanır. Serpantin kimi dağlara dolanan hamar və geniş asfalt yol da düz bölmənin qarşısında bitir.

Ön xəttə gedərkən bütün məntəqələrin yaxınlığında bölmələrin hazırlığı, məşq keçilməsi üçün atış sahələri, atış meydançaları, fərdi nəzarət zolaqlarının yaradıldığını gördük.

- Burada döyüş növbəsi yüksək səviyyədə təşkil olunub, - baş leytenant Orxan Ağayev bizimlə söhbətində deyir. -Müəyyən edilmiş qaydada döyüş postuna qalxan döyüşçülər vaxtı çatdıqda dəyişdirilirlər. Döyüşçülərimizin ovqatı yüksəkdir. Vətənimiz Azərbaycana övladlıq borcunu verdiklərini aydın başa düşürlər və öz vəzifələrinə məsuliyyətlə yanaşırlar.

Biz bölmədə olarkən döyüşçülərin posta qalxmaq vaxtı idi. Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kiçik çavuş İlkin İbrahimov dəyişdirici kimi postdakı əsgərləri başqaları ilə əvəz etməyə hazırlaşırdı.

Doğrudan da, az keçmiş döyüş növbəsinə yollanacaq əsgərlər dəyişdirici kiçik çavuş İlkin İbrahimovun komandası ilə təlimat nöqtəsinə gəlirlər. Öncə onlar təlimatlandırılır, postda vəzifə borcları bir daha döyüşçülərə xatırlanır. Sonra təyin olunmuş yerdə onlar silahlarını doldurub dəyişdiricinin nəzarətilə növbə yerinə yola düşürlər.

Əlaqə yolu ilə biz də ön xəttə qalxırıq. Burada əsgər kimi baş-başa vermiş, çiyin-çiyinə dayanmış dağlar qoynunda sədlər və səngərlər istehkam nöqteyi-nəzərindən yüksək səviyyədə hazırlanıb. Hər səngər topdağıtmaz qalaya çevrilib. Döyüşçülərimiz bu mövqelərdə daha ürəkli, daha qorxmaz, daha döyüşkən görünürlər.



Bu ərazilərdə düşmən ordusunun mövqeləri bizim səngərlərdən xeyli aşağıda yerləşirdi. Nə qədər diqqət yetirsəm də, heç bir erməni əsgərinin qaraltısını belə sezmədim.

- Heç atırlarmı? - üzümü düşmən mövqelərinə tutub döyüş növbəsi aparan döyüşçümüzdən xəbər alıram.

- Atsalar, cavablarını layiqincə alacaqlar, - Vətən oğlu vüqarla və əminliklə cavab verir.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Xəbərlər: hadisələr, faktlar

## ABŞ Suriya kürdlərini silahlandırır, Türkiyə buna etiraz edir



Amerika hərbçiləri Türkiyə ilə sərhəddə yerləşən Suriyanın Kobani şəhərində uzun müddətdir ki, İŞİD yaraqlılarına qarşı döyüşən kürd dəstələrinə təyyarələrdən silah-sursat və tibbi ləvazimat atıb. Bu barədə ABŞ Hava Qüvvələrinin mərkəzi komandanlığı məlumat yayıb.

AzərTAc TASS informasiya agentliyinə istinadla xəbər verir ki, məlumatı təsdiqləyən ABŞ administrasiyasının nümayəndələri bu addımı İŞİD-in şəhəri ələ keçirəcəyi təqdirdə baş verəcək humanitar fəlakətin və dinc əhalinin kütləvi qırğınının qarşısını almaq məqsədi ilə atdıqlarını iddia ediblər.

Türkiyə Prezidenti Rəcəb Tayib Ərdoğan isə Suriya kürdlərinə silah çatdırılması barədə ABŞ-ın planını tənqid edib və sərhədin digər tərəfindəki kürd təşkilatlarının PPK ilə həmfikir olduqlarını bildirib. O deyib ki, terrorçular digər terrorçularla döyüşsələr belə, onları silahla təmin etmək yanlış addımdır: "Birləşmiş Ştatların və NATO alyansındakı müttəfiqlərimizin bizim terror təşkilatlarına dəstək verəcəyimizi gözləmələri yanlış olardı. Bizim buna razılıq verməyimiz sadəcə olaraq mümkün deyil".

## Rusiya hərbi təyyarəsi Estoniyaya girib?



Rəsmi Moskva Rusiya təyyarəsinin Estoniyanın hava hüdudlarını pozması haqda Estoniyanın iddialarını təkzib edib.

ANS PRESS-in məlumatına görə, bu haqda Rusiya Müdafiə Nazirliyi açıqlama yayıb. Onların bildirdiyinə görə, Rusiya təyyarəsi Baltik dənizi üstündən neytral sular üzərindən uçub. Estoniya bir gün əvvəl Rusiya səfirini xarici işlər nazirliyinə çağırıb bildirmişdi ki, Rusiyanın İl-20 təyyarəsi Estoniyanın hava hüdudlarına girib.

NATO da bildirir ki, təyyarəni əvvəlcə Danimarka təyyarəsi aşkar edib, bundan sonra İl-20 təyyarəsi İsveçə doğru uçub. NATO bildirir ki, təyyarə Estoniya hava məkanında 1 dəqiqə olub, bundan sonra Estoniya təyyarələri onu ölkə ərazisini tərk etməyə məcbur ediblər.

## Türkmən qəsəbəsi Kobanidən daha çox təhlükədədir



"İŞİD hər gün türkmənlərin yaşadığı kəndlərə, qəsəbələrə, şəhərlərə hücum edir. Ötən gün İŞİD türkmənlərin yaşadığı Qaratəpə qəsəbəsində 10 türkməni qətlə yetirib".

ANS PRESS-in məlumatına görə, bunu APA-ya açıqlamasında Kərkük İnformasiya Agentliyinin və "Türkmeneli TV"-ninTürkiyə təmsilçisi Ersan Sarıkahya söyləyib.

E.Sarıkahya deyib ki, Telaferdə olduğu kimi, bu günə qədər hazırda İŞİD-in mühasirəyə aldığı Qaratəpəyə İraq mərkəzi hökuməti ordusu, Şimali İraq Kürdüstan Muxtariyyətinə bağlı peşmərgə gücləri, ABŞ və müttəfiqlərinin hava qüvvələri tərəfindən hər hansı dəstək verilməyib: "Artıq İŞİD Mosulda İraq ordusunun bazasından ələ keçirdiyi hərbi texnikadan türkmənlərin kənd, qəsəbə və şəhərlərinə hücumda istifadə etməyə başlayıb. İŞİD-in mühasirəyə aldığı türkmən qəsəbəsi Qaratəpədəki mülki şəxslərin sayı Kobanidəki əhalidən dəfələrlə çoxdur. Kobanidə faktiki mülki şəxslər qalmayıb, lakin 20 mindən çox əhalisi olan Qaratəpədə çoxlu sayda mülki şəxs qətliam təhlükəsi altında yaşamaqdadır.

## Kanadanın Baş naziri: bizi qorxutmaq mümkün deyil



Ottavada hərbçinin öldürülməsində və parlament binasına silahlı basqında iştirak edən cinayətkarın mümkün ortaqlarının axtarışı davam edir. Euronews telekanalı xəbər verir ki, hadisə zamanı parlament binasında olan Kanadanın Baş naziri Stiven Harper deyib: "Kanadanı qorxutmaq mümkün deyil. Əksinə, bu bizim qətiyyətimizi daha da artıracaq, təhlükəni qabaqlamaqdan ötrü mümkün olan addımları atacağıq. Eyni zamanda biz bütün dünyadakı müttəfiqlərimizlə digər ölkələrdə özlərini vəhşi kimi aparan və öz vəhşiliklərini bizim sahillərə də gətirməyə çalışan terror təşkilatları ilə mübarizə sahəsində əməkdaşlıq üçün səylərimizi ikiqat artıracağıq".

Qeyd edək ki, naməlum şəxs Birinci Dünya müharibəsində həlak olmuş kanadalı əsgərlərin xatirəsinə ucaldılmış abidə qarşısındakı fəxri qarovula atəş açıb. Kanada KİV-lərinin məlumatına görə, hadisəni törədərkən öldürülən cani islam dinini qəbul etmiş Kanada vətəndaşı Maykl Zehaf Bibodur.

## Vnukovo hava limanındakı təyyarə qəzası ilə əlaqədar dörd nəfər saxlanılıb




Rusiyalı müstəntiqlər Total konserninin icraçı direktoru Kristofde Marjerinin və üç ekipaj üzvünün həlak olduğu təyyarə qəzası ilə əlaqədar Vnukovo aeroportunun dörd əməkdaşını saxlayıb.

AzərTAc BBC telekanalına istinadla xəbər verir ki, həmin şəxslərin uçuşların və uçuş zolağındakı işlərin təhlükəsizlik tələblərini təmin etmədikləri ehtimal olunur.

Rusiyada və Fransada artıq təyyarə qəzası ilə bağlı cinayət işi başlanılıb. Telekanalın son məlumatına görə, "Vnukovo" hava limanının baş direktoru Andrey Dyakov və onun müavini Sergey Solntsev dörd nəfərin ölümünə səbəb olmuş qəza ilə əlaqədar istefa veriblər.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# Hərbi qulluqçuların məişət şəraiti və əşya təminatının yaxşılaşdırılması istiqamətində tədbirlər görülür

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması, çöl və stasionar şəraitdə yerləşən hərbi hissələrin maddi-texniki təminatının gücləndirilməsi və müasir avadanlıqlarla təchiz edilməsi istiqamətində fəaliyyətlər davam etdirilir.***













Ali Baş Komandanın bu sahədə işlərin sürətləndirilməsi məqsədilə verdiyi tövsiyə və tapşırıqlarının icrası ilə əlaqədar qısa müddət ərzində Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən konkret tədbirlər həyata keçirilib.

Belə ki, hərbi qulluqçuların yay və qış, bütün alt və üst geyim formaları daha rahat olması, keyfiyyəti və rəngləri ilə seçilir. Bundan əlavə pilot variantda hazırlanan və hərbi hissələrdə istənilən iqlim şəraitində sınaqdan keçirilən yeni formalar yüksək dözümlüyü və davamlığı ilə də fərqlənir.

Eyni zamanda hərbi qulluqçuların yataq şəraitlərinin yaxşılaşdırılması məqsədilə köhnə tip əsgər çarpayıları müasir tipli bir və iki mərtəbəli çarpayılarla, pambıq yataq dəstləri yaylı döşək, sintepon balış və akril ədyallarla, kiçik həcmli dolabçaların isə iki nəfərlik iritutumlu metal dolablarla əvəz olunması həyata keçirilir. Eyni zamanda iplik əl-üz dəsmalları xovlu əl-üz dəsmalları ilə əvəz edilir, o cümlədən şəxsi heyətin hərbi geyim və əşya əmlakı ilə təminatı normalarına hamam və ayaq dəsmalları da əlavə olunur.

Hazırda stasionar və çöl şəraitində yerləşən hərbi hissələrdə hamam-camaşırxana və məişət otaqlarının yeni avadanlıqlarla əvəz olunması istiqamətində də müvafiq işlər görülür. Hərbi qulluqçular üçün müasir tələblərə cavab verən camaşır xidməti təşkil edilir, camaşırların yuyulması, qurudulması, ütülənməsi və polietilen steril paketlərdə qablaşdırılaraq hərbi hissələrə çatdırılması yüksək səviyyədə həyata keçirilir.





Hazırda "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi hissələri, hərbi-tədris müəssisələri və təşkilatlarının şəxsi heyətinin hərbi geyim və əşya əmlakı ilə təminat normaları"na əlavə dəyişikliklərin edilməsi barədə qərar qəbul olunması üçün layihə sənədi Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim olunub.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Laçın (17 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

## İdman

### Erməni idmançı boksçumuzla rinqə çıxmaqdan imtina edib



Xorvatiyanın paytaxtı Zaqrebdə gənclər arasında boks üzrə Avropa birinciliyi davam edir. AzərTAc xəbər verir ki, iki azərbaycanlı idmançı - Məsud Yusifzadə (52 kq) və Məhəmmədəli Tahirov (91 kq) yarımfinala yüksəliblər.

Dörddəbir finalda boksçumuz Məsud Yusifzadə (52 kq) gürcüstanlı rəqibi Qaik Pozoyana qalib gəlib. Digər boksçumuz Məhəmmədəli Tahirovun (91 kq-dan yuxarı) rəqibi, Ermənistan təmsilçisi Qnel Muradyan isə rinqə çıxmaqdan imtina edib.

Yarımfinalda M.Yusifzadə bolqarıstanlı Daniel Asenovla, M.Tahirov isə Almaniya boksçusu Peter Kaduri ilə qarşılaşacaqlar.

### Çövkən üzrə Azərbaycan çempionatının yarımfinalçıları müəyyənləşib




Bakı Dövlət Cıdır Meydanında keçirilən çövkən üzrə üçüncü Azərbaycan çempionatının yarımfinalçıları müəyyənləşib. AzərTAc xəbər verir ki, yarışda "Sərhədçi", "Ağcabədi", "Polad", "Balakən", "Ağstafa", "Ağdam", "Laçın", "Şəki" və "Kövsər" komandaları mübarizə aparır. "Ağcabədi" komandasına texniki məğlubiyyət verilib və "Polad" kollektivi yarımfinala yüksəlib. Digər oyunda "Ağstafa" və "Sərhədçi" kollektivləri qarşılaşıb. Gərgin idman mübarizəsi şəraitində keçən görüş "Sərhədçi"nin 3:0 hesablı qələbəsi ilə yekunlaşıb. Beləliklə, çempionatın yarımfinal mərhələsində "Polad" komandası "Ağdam" ilə, "Sərhədçi" kollektivi isə "Balakən" ilə qarşılaşıb.

### Samboçularımız dünya kubokunun mərhələ yarışında iki medal qazanıblar



Moskvada sambo üzrə A.Aslaxanov mükafatı uğrunda dünya kubokunun mərhələ yarışına yekun vurulub. AzərTAc xəbər verir ki, yarışda Azərbaycan millisi də mübarizə aparıb. Turnirdə milli komandamızın üzvləri Emil Həsənov (74 kq) gümüş, Vasif Səfərbəyov (100 kq-dan yuxarı) isə bürünc medal qazanıblar.

### Qəbələdə atıcılıq üzrə Dünya Kubokunun qalibləri məlum olub



Qəbələ Stend və Ox Atıcılığı Kompleksində Olimpiya atıcılıq növləri üzrə Dünya Kuboku yarışlarının final mərhələsinə start verilib.

AzərTAc xəbər verir ki, yarışların final mərhələsində güllə və stend Olimpiya atıcılıq növləri üzrə dünya reytinq cədvəlində xüsusi yer tutan 280 idmançı iştirak edir. Final yarışlarında ölkəmizi bu beynəlxalq yarışda dairəvi stend atıcılığı üzrə Nurlanə Cəfərova və Emin Cəfərov, güllə atıcılığı üzrə İradə Aşumova və Ruslan Lunev təmsil edirlər.

### Azərbaycan cüdoçusu dünya çempionatında bürünc medal qazanıb



AzərTAc xəbər verir ki, ABŞ-da gənc cüdoçular arasında dünya çempionatının ilk günü Azərbaycan millisi üçün uğurlu alınıb. Belə ki, tatamiyə çıxan 5 cüdoçumuzdan Mehman Sadıqov üçüncü, Davud Məmmədov (hər ikisi 60 kq) beşinci yeri tutub. Digər idmançılarımıza gəlincə, Leyla Əliyeva (44 kq) və Natiq Qurbanlı səkkizdəbir, Sadiq Məhərrəmov (hər ikisi 55 kq) isə onaltıdabir finalda uduzublar. Dünya çempionatında daha 5 cüdoçumuz gücünü sınayacaq.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

## Xarici hərbi xronika

### Əfsanəvi Rusiya vertolyotları

Rusiya hərbi texnikasına olan ehtiyac getdikcə artmaqdadır. Dünyada məşhur olan vertolyotlardan biri "Noçnoy oxotnik"dir. Öz xüsusiyyətlərinə görə bu vertolyot Amerikanın Apache maşınını üstələyib. Onun tankəleyhinə idarəolunan raketi 8 kilometrlik məsafədə yerləşən hədəfi dəqiqliklə məhv etməyə qadirdir. Vertolyotun radiolokasiya sistemi "Arbat" pilota müxtəlif hava şəraitində döyüş sahəsini görməyə imkan verir. Kəşfiyyat-hücum Ka-52 "Alliqator" vertolyotu müxtəlif hava şəraitində fəaliyyət göstərməyə qadir olan iki vintli maşındır. Onunla uzaq məsafədə yerləşən zirehli hədəfləri məhv etmək olar. Dünyada daha çox tanınan və yeganə çoxməqsədli döyüş-nəqliyyat Mi-35 vertolyotudur. Bu, Rusiya Müdafiə Nazirliyinin ehtiyaclarını ödəmək, həm də ixrac edilmək üçün istehsal edilir. Düşmənin zirehli tank texnikasını məhv etmək, quru qoşunlara dayaq durmaq, yaralıları və yükləri daşımaq üçün nəzərdə tutulub. Mi-35M hərbi-nəqliyyat təyyarəsinin modifikasiya versiyasıdır, bütün gün ərzində və müxtəlif hava şəraitində döyüş tapşırıqlarını yerinə yetirə bilər.

Mürəkkəb əməliyyatlarda xilasetmə işlərini yerinə yetirmək üçün istifadə olunan vertolyotlardan biri də Mi-26T-dir. Vertolyot asılqanında və öz kabinəsində 20 tona qədər irihəcmli texnika və yükləri daşımağa qadirdir. Daha sonra nəqliyyat-desant variantında vertolyota 82 ədəd, sanitar variantında isə 60 ədəd çarpayıda yaralıları yerləşdirmək mümkündür. Onun yanğın əleyhinə variantı Mi-26T müxtəlif iri və azsulu hövzələrdən 15 tona qədər su götürə bilər.

### Nigeriyanın Hərbi Dəniz Qüvvələri "Hamilton" sinifli gəmini qəbul edəcək

ABŞ-ın sahil mühafizəsindən çıxarılan "Qallatin" gözətçi gəmisi Nigeriyanin HDQ-nin tərkibinə daxil ediləcək və burada gəmi "Okpabana" adı altında xidmətini davam etdirəcək. Verilən məlumata görə, gəmi 45 ildən sonra - 2014-cü ilin mart ayında ABŞ-ın sahil mühafizə xidmətindən çıxarılıb. Sifarişçiyə təhvil verilməmişdən qabaq ona texniki xidmət göstərilib. Gəmi Nigeriyanın sahilyanı neft mədənlərini qoruyacaq, dəniz ərazilərinin təhlükəsizliyini təmin edəcək və terrorizmə qarşı mübarizə aparacaq. Daha sonra Nigeriya donanması ABŞ-dan "Obula", "Nvamba", "Kianva" və "Oloqba" gəmilərini də əldə edəcək.

**Hazırladı:**
**Svetlana NƏSİBQIZI**

## Hərbi xidmət müddətində test

*Təkrar biliyin anasıdır. Bu mənada bəzi bilgiləri elə hərbi xidmət müddətində də təkrarlamaq imkanınız var. Bu imkanı Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi ilə "Azərbaycan Ordusu" qəzetinin "Hərbi xidmət müddətində test" birgə layihəsi verir. Testlər həftədə bir dəfə təqdim olunacaq. Növbəti həftəyə kimi göndərilən cavablar qiymətləndiriləcək.*




*Gecikənlər poçt göndərişinin üzərindəki möhürə əsasən nəzərə alınacaq.*

*Müsabiqəyə ilin sonunda, Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində yekun vurulacaq. Həmin müddətdə ən çox bal toplayan əsgərlər mükafatlandırılacaq:*

**I yer - 150 AZN**
**II yer - 100 AZN**
**III yer - 50 AZN**

**"Azərbaycan Ordusu"**

***1. "Bir dəfə yüksələn bayraq bir daha enməz" ifadəsi kimə məxsusdur?***

a) M.Ə.Rəsulzadə
b) Ə.Cavad
s) Ə.Hüseynzadə
d) M.Şeyxzamanlı

***2. ADR neçə ay mövcud olub?***

a) 24
b) 23
c) 25
d) 26

***3. "Xınalıq" rəsminin müəllifi kimdir?***

a) T.Nərimanbəyov
b) S.Bəhlulzadə
c) M.Rəhmanzadə
d) T.Salahov

***4. Hansı yazılış düzdür:***

a) Azərbaycanın Müdafiə Nazirliyi
b) Azərbaycan Respublikasının Müdafiə Nazirliyi
c) Azərbaycan Respublikasının Müdafiə nazirliyi
d) Azərbaycanın Müdafiə nazirliyi

***5. "Qətl günü" romanının müəllifi kimdir?***

a) Anar
b) İ.Şıxlı
c) Y.Səmədoğlu
d) M.Səmədoğlu

***6. Qaloş hansı əsərin personajıdır?***

a) "Şamo"
b) "Saçlı"
c) "Səhər"
d) "Mehman"

***7. Azərbaycanın ilk şəfqət bacısı kimdir?***

a) Z.Mirismayılova
b) N.Şıxlinskaya
c) A.Məmmədova
d) B.Köçərli

***8. "Dəli Kür" romanının müəllifi kimdir?***

a) Ə.Vəliyev
b) S.Rəhimov
c) İ.Əfəndiyev
d) İ.Şıxlı

***9. Azərbaycan Respublikası Konstitusiyasına görə Azərbaycan dövlətinin başçısı kimdir?***

a) Milli Məclisin sədri
b) Prezident
c) Baş nazir
d) Müdafiə naziri

***10. İkinci Dünya müharibəsində fəxri "Taqanroq" adını hansı diviziya daşıyıb?***

a) 77-ci
b) 402-ci
c) 416-cı
d) 202-ci

***11. İkinci Dünya müharibəsində Yuqoslaviya ilə İtaliya partizanları sırasında şöhrət qazanmış azərbaycanlı partizan kimdir?***

a) Baloğlan Abbasov
b) Mehdi Hüseynzadə
c) Həzi Aslanov
d) Əhmədiyyə Cəbrayılov

***12. Sıra düzülüşü hansı komanda ilə yerinə yetirilir?***

a) farağat
b) diqqət
c) olmadı
d) düzül

***13. İkinci Dünya müharibəsində Qafqazdan Berlinədək döyüş yolu keçmiş Azərbaycan diviziyası hansıdır?***

a) 223
b) 402
c) 416
d) 77

***14. Azərbaycan Xalq Cümhuriyyətini ilk olaraq hansı dövlət tanımışdı?***

a) İran
b) Türkiyə
c) Gürcüstan
d) Pakistan

***15. Məhsəti Gəncəvi ən çox hansı janrda yazıb?***

a) qəzəl
b) qəsidə
c) rübai
d) müxənnəs

***16. Yerində dönmələr neçə saya yerinə yetirilir?***

a) 2
b) 3
c) 1
d) 4

***17. Nizami Gəncəvinin hansı əsəri iki hissədən ibarətdir?***

a) "Yeddi gözəl"
b) "İsgəndərnamə"
c) "Xosrov və Şirin"
d) "Leyli və Məcnun".

Müddətdən artıq xidmət edən hərbi qulluqçu çavuş Nizamov Vilayət Fərrux oğluna 2008-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 331
Nüsxə 4570